# Sözüylə daşı da yandıran şair

**Qayım-qədim Qazax mahalı, Qazax torpağı şairlər vətəni, müdriklər beşiyi, qəhrəmanlar eli kimi ad qazanmışdır, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Kazım Ağa Salik, Səməd Vurğun, Mehdi Hüseyn, Osman Sarıvəlli, İsmayıl Şıxlı, Vidadi Babanlı, Nəriman Həsənzadə, Hüseyn Arif, Həmid Abbas, Fərman Eyvazlı, Nüsrət Kəsəmənli və s. kimi unudulmaz söz sərraflarını Azərbaycana bəxş etmişdir.**

Bu adını çəkdiyimiz və çəkmədiyimiz məşhur yazarlardan başqa Qazağın yüzlərlə istedadlı, xalq tərəfindən qəbul edilən və sevilən qələm sahibləri vardır ki, onlar öz şeirləri ilə xalqımızın ruhuna yol tapmış, onların zövqünü layiqincə oxşamışlar, sözdən möhtəşəm sənət abidələri qoymuşlar. Bunlara misal olaraq Ağamalı Sadiq Əfəndinin, Ələddin İncəlinin, Aslan Kəmərlinin, Barat Vüsalın, Akif Səmədin, Eldar Nəsiblinin, Məmməd İlqarın, Məmməd Dəmirçioğlunun, Vəli Xramçaylının, Fəridə Ləmanın, Oqtay Xəliloğlunun, Rəfail İncəyurdun, İbrahim İlyaslının və.s adını çəkmək olar. Bu siyahını bir az da genişləndirmək mümkündür, məsələn: Zaməddin Ziyadoğlu, Şöhrət Calaloğlu, Saqif Qaratorpaq, Mübariz Qaragözlü, Mustafa Rasimoğlu, Avdı Qoşqar, Məzahir Yaqub, Səhlədar Hidayətoğlu, Güləmayıl, Qazaxlı Rüstəm Şərimmətli, Cığatel, Bəxtiyar Rüstəmoğlu, Mahmud Vəli, Elburus Qəmgin, Nuranə Təbriz və digərləri də bu gün o torpağın şairlik, yaradıcılıq ənənəsini məharətlə davam etdirir, çox böyük maraqla oxunurlar.

Bu sıradan olan şairlərimizdən biri də 4 il bundan öncə dünyasını dəyişmiş mərhum Mədət Məhbub idi. Mədət Ziyaddın oğlu Alıyev 1959-cu il iyulun 1-də Qazax rayonunun Yuxarı Salahlı kəndində, Səməd Vurğunun kəndində anadan olmuşdur. Elə Səməd Vurğun kimi də anadan şair doğulmuşdur. Kürün suyundan içib, bir tərəfdən Qarayazı meşəsinin, digər tərəfdən Kiçik Qafqaz dağlarının mehilə havalanmış, gənc yaşlarından aşıqların, şairlərin sözünü eşidə-eşidə dilə, ədəbiyyata maraq göstərmişdi. Hələ orta məktəbdə oxuyarkən şeirlər yazmış, rayon qəzetində çap olunmuşdur. Məktəbi qurtardıqdan sonra Mədət Alıyev hərbi xidmətə yollanmış, qayıdandan sonra isə Bakıda 1 saylı Tikinti quraşdırma trestində fəhlə işləmiş, eyni zamanda sənədlərini Bakı Dövlət Universitetinin filologiya fakültəsinin axşam şöbəsinə təqdim etmiş və ora qəbul olmuşdur. Həmin fakültəni bitirdikdən sonra işlədiyi trestin partiya komitəsinin katibi vəzifəsinə seçilmişdir. Bu vəzifədə özünü çox bacarıqlı bir siyasi rəhbər kimi göstərən Mədət Alıyevi çox keçməmiş Bakı şəhəri Xətai rayon partiya komitəsinin təşkilat şöbəsinin müdiri vəzifəsinə irəli çəkmişlər. Bu o zamanlar idi ki, Sovetlər İttifaqı dağılır, Kommunist Partiyası öz keçmiş nüfuzunu itirərək süquta uğrayırdı. Mənfur qonşularımız isə torpaqlarımıza öz havadarlarının köməyi ilə basqınlar edir, qətllər törədirdilər. Qazaxda da vəziyyət çox ağır idi. Bakıda Qazağın tanınmış ziyalılarının təşəbbüsü ilə yaradılmış Qazax Xeyriyyə Cəmiyyəti müqəddəs Vətəni müdafiə işlərinə başlamışdı. Bu zaman bir yurdsevər Qazaxlı kimi Mədət Məhbub da tutduğu vəzifənin bütün imkanlarından istifadə edərək Cəmiyyətə kömək edirdi.

Elə bu vaxtlar da (1993-cü ilin ortalarında) yenicə təşkil olunmuş Xətai İcra Hakimiyyətində Mədət Məhbubu gözü götürməyənlər, onun təşkilatçılıq bacarığının, xalq arasında nüfuzunun paxıllığını çəkənlər onu köhnə partiya işçisi kimi tutduğu vəzifədən qanunsuz olaraq azad etdilər. Bu zaman Mədət Məhbub da sarsılmadan üz tutdu Qazax Xeyriyyə Cəmiyyətinə və onun gündəlik fəaliyyətində yaxından iştirak etməyə başladı. Bu cəmiyyətin mətbu orqanı olan "Dəli Kür" qəzetinə baş redaktor təyin edildi, o dövrdə çox böyük maraqla oxunan bu qəzetdə bir-birindən gözəl şeirlər çap etdirdi. Bütün Qazaxlıları doğma Vətənə köməyə harayladı, birliyə çağırdı. Onun həmin dövrdə yazdığı məşhur "Qazaxlılar, Qazax kimdən incisin?" və "Olmayın" şeirləri o mahalın bütün sakinlərinə, xüsusilə o torpaqda böyüyüb boya-başa çatan, indi isə onun dərdinə biganə qalanlara, öz evinə qısılıb xeyrə-şərə yaramayanlara elə onların dilində yazılmış bir tənbeh, tənə mesajları idi. Və aşıqlarımız, söz adamlarımız tərəfindən bu şeirləri eşidən hər bir kəsdə bir xəcalət, məsuliyyət, narahatlıq hissi oyanırdı, ona görə də hamı Qazax Xeyriyyə Cəmiyyətinə axışıb gəlir, köməklikləri göstərirdilər. Beləcə, Mədət Cəmiyyətdə xeyli işlər gördü və bir-birindən gözəl şeirlər yazmağa başladı, 1996-ci ildə "Dəyişdi bu dünya ", 1997-ci ildə isə "Söz ki daşı yandırmadı ", 2001-ci ildə " Axrın mənəmmi, dünya?" adlı şeir kitablarını təqdim etdi oxuculara.

Bu illər ərzində Mədət həm də onu işindən qanunsuz azad edən təzə bəylərə qarşı ədalət mübarizəsinə çıxdı, hüquq mühafizə orqanlarına şikayət məktubları ünvanla-



dı, bu yolda olmazın maddi və mənəvi əzablar çəkdi, nəhayət öz işinə bərpa olundu, lakin iki aydan sonra bu kollektivə etiraz əlaməti olaraq öz ərizəsi əsasında oranı tərk etdi. "Şairi, aşığı, sənətkarı el yaşadar" fikri ilə üzünü elinə-obasına tutdu, öz dərdini unudub onun problemləri ilə yaşadı, dərdlərini yazdı." Bir kəndin ağrıları" adlı elegiyasında doğulduğu Yuxarı Salahlının şəhidlərini bir-bir andı, ağladı, əvəzolunmaz yazıçımız İsmayıl Şıxlının vəfatından qəhərlənib , o vaxtlar Azərbaycan ədəbi mühitində böyük rəğbətlə qarşılanmış"İsmayıl Şıxlı" poeması yazdı. Ona bu sözlərlə başlayıb qileyləndi bu fani dünyadan:

**İnsafın yox, mürvətin yox,**
**İnsaf gələ sənə, dünya.**
**Nə Allaha inanırsan,**
**Nə imana, dinə, dünya.**

**Nə atasan, nə anasan,**
**Gah şeytansan, gah sonasan.**
**Baxırsanmı, utanasan,**
**Saçımdakı dənə, dünya**

**...Vidadimi aparmısan,**
**Vaqifimi qoparmısan.**
**Əvəzini taparmısan?**
**Biri əvəz minə, dünya.**

**Vurğunumu eldən aldın,**
**Osmanımı əldən aldın.**
**Mehdimi qəfildən aldın,**
**Taxtın qəfil dönə, dünya.**

**Hüseynə də qıymadınmı?**
**Aldığını saymadınmı?**
**Anda çəkdim, uymadınmı?**
**Bəs qibləyə, yönə, dünya!**

**Ha dedim ki, xoş an ola,**
**Qəm dağıla, baş ayıla...**
**Dağdan ağır İsmayıla,**
**Yas tuturam yenə dünya!**
**Yenə qıydın mənə, dünya?**

Çox çətin günlər yaşadı işsiz Mədət Məhbub, vəzifədə olan zaman, vəziyyəti yaxşı olan zaman ona "dost" deyənlərin çoxu üz döndərdi ondan, ona yaxın durmadı, özünün yazdığı kimi:

**Məni darda qoyub, şən dolandılar**
**Gendə sevincimi qapan dostlarım!**
**Ürəkli oğlandan gen dolandılar**
**Çörəkli oğlanlar tapan dostlarım!**

**Bir zaman qapımı döyən idilər,**
**Yağlıdan, yavandan yeyən idilər,**
**Qotazlı sağlıqlar deyən idilər**
**Yalanı uzümə yapan dostlarım!..**

Onlardan ancaq bircə nəfər, Mədəti Bakıya gələndən tanıyan Qazax rayonunun Ürkməzli kəndindən olan elimizin çox qeyrətli və çox böyük ürəkli oğlu Müseyib İbrahimov ona son gününə qədər arxa-dayaq oldu, onu tək qoymadı. " Ot kökü üstə bitər" deyib atalar. Müseyib İbrahimov vaxtilə Qazağın mərkəzində yerləşən ikimərtəbəli möhtəşəm malikanəsini Firudin bəy Köçərli tərəfindən Qoridən Qazağa köçürülmüş Müəllimlər Seminariyasına hədiyyə etmiş Kosalarlı Məşədi İbrahimin oğul nəvəsidir. O, 8 il Bakı şəhəri, Yasamal rayonu, 13 il Xətai rayonu İcra hakimiyyətlərində məsul vəzifələrdə çalışmış, hal-hazırda Abşeron rayonu Hökmələ qəsəbə inzibati ərazi dairə üzrə nümayəndə vəzifəsini icra edir. Onun haqqında Mədət Məhbub özü belə yazır:

**Şairlə görüşdən qaçır çoxları,**
**Sən gəlib batmanla dərd aparırsan.**
**Heyrətdən ağzını açır çoxları,**
**Dərdi də minnətsiz, mərd aparırsan.**
**Adını tuturam vaxtsız, qəfildən,**
**Vaxtına, vədənə qıyıb gəlirsən.**
**Səni öz dünyandan ayırsam da mən,**
**Sən şair dünyamı sayıb gəlirsən.**

**Səni hər görəndə hey qandırırsan,**
**Çəkdiyim dərdlərin ağırı deyil.**
**Səni hər görəndə inandırırsan,**
**Hələ bu dünyanın axırı deyil...**

Onun dərdinə yanan, ona həmişə dəstək olan dostlarından, eloğlularından biri də Qazağın Yuxarı Əskipara kəndindən aşıq Nurəddin Eminov oldu. Mədətin maddi durumunun ən çətin vaxtlarında Nurəddin ona daimi dəstək oldu, çox böyük təkidlə onu öz toy məclislərinə dəvət etdi və şairə də öz şeirləri ilə məclislər aparmağı tövsiyyə etdİ və öyrətdi. Elə o günlərdən də Mədətin vəziyyəti düzəlməyə başladı, o çox məşhur müğənnilərlə, musiqiçilərlə el şənliklərinin sevilən aparıcılarından biri oldu. Axır zamanlarda o Bakının Nizami rayonunun "Praqa" şadlıq sarayında aparıcı kimi çalışırdı. Amma o bu işi heç vaxt özünə yaraşdırmırdı, layiq bilmirdi, baxmayaraq ki bu sənətlə bir çox aktyorlarımız, ziyalılarımız da məşğul idilər. Çünki çox qürurlu bir insan idi, şair idi, üstəgəl əvvəllər də yüksək vəzifələrdə olasan. Ona görə də o həmişə fikirli, qayğılı olardı, damağından siqareti əskik olmazdı, həm özünün, həm də bu millətin düşdüyü dərdi, itirilən torpaqlarımızın, qaçqınlarımızın dərdini çəkərdi və " mənim gücüm sözə çatar" deyib Sözdən yapışardı, Sözlə ovudardı, dağıdardı dərdlərini. Onun " Görüş" poeması neçə il çadır daxmada yaşayan bir qocanın dəvəti ilə oraya getmiş şairin görüşü, həmin çadırlardakı soydaşlarımızın dözülməz vəziyyəti, onların şanlı keçmişi və dumanlı gələcəyi haqqında bir ağıdır, fəryaddır, oyanışa, cihada bir çağırışdır:

**... Bir insan nə qədər torpaq, daş desin**
**Döysün dizlərinə, döysün başına.**
**Vətən hansı üzlə vətəndaş desin,**
**Çadırda böyüyən vətəndaşına!..**

**(ardı növbəti sayımızda)**

**Valeh Nəsibli**
**Filologiya üzrə**
**elmlər doktoru, professor**